*FAİQ QİSMƏTOĞLU*
faiq_qismetoglu@box.az



# ALLAHA SIĞINAN ADAM

...Onun çöhrəsində həmişə bir nur vardı. Və bu nuru ona Allah-Təala vermişdi. Düşünürdük ki, Famil Mehdi haçan bizə mühazirə oxuyacaq və biz də onun çöhrəsindəki o nuru nə vaxt görəcəyik. Hər dəfə auditoriyaya girəndə son dərəcə hamımızla səmimi salamlaşar və sonra da mövzu ilə bağlı mühazirə oxuyardı. Hər mühazirəsi o qədər maraqlı, o qədər şirin və o qədər yaddaqalan olurdu ki, vaxtın necə gəlib keçdiyini qətiyyən hiss eləməzdik. Arabir nəzərlərini auditoriyaya yetirər və bizə baxardı. Onda da hiss edərdik ki, Famil müəllim artıq ürəyini boşaldıb. Onun ürəyi boşalırdı, bizim də qəlbimiz boşalan ürəkdən aldığımız nurla, işıqla dolardı...

Azərbaycan Dövlət Universitetində (BDU) jurnalistika fakültəsində oxuyanda bizim çox istedadlı və dəyərli, işıqlı, nurlu müəllimlərimiz vardı: Mir Cəlal Paşayev, Nəsir İmanquliyev, Şirməmməd Hüseynov, Nurəddin Babayev, Nəriman Zeynalov, Tofiq Rüstəmov, Qulu Xəlilov, Əliş Nəbili, Cahangir Məmmədli, Akif Rüstəmov, Nəsir Əhmədov... adları və soyadlarını unutduğum müəllimlərim məni bağışlasınlar! Və onların da adı yuxarıda sadaladığım işıqlı ziyalılar kimi hamısı qəlbimizdədir. Sadəcə olaraq, yazını birbaşa bilgisayara diktə elədiyimə görə, bəzi hadisələri xatırlaya bilmirəm...

Famil Mehdi gözəl şair idi, gözəl alim idi, gözəl ziyalı idi və gözəl də müəllim idi. Allah-Təala həm ona şairlik qismət eləmişdi, həm də alimlik. Və bir çox halda şairlik alimliyi üstələyirdi, bəzən də alimlik şairliyə qalib gəlirdi. Bütün hallarda yenə udan və qalib olan Famil Mehdi idi. O Famil Mehdi ki, biz tələbələrin ürəyində hər mühazirəsində, hər söhbətində bir iz qoyardı...

Ağır oturub batman gələn kişilərdən idi Famil Mehdi. Biz heç vaxt onun özündənrazılığını və təkəbbürlüyünü görmədik. Biz gördük ki, Famil müəllim hamı ilə çox səmimi münasibət qurub. Xüsusən biz tələbələrin qəlbini, ürəyini ələ alardı. İmtahan götürəndə isə heç kimin xətrinə dəyməzdi və bilərdi ki, imtahana gələn hər bir tələbə onun öyrətdiklərinin hamısını yadda saxlayıb. Və buna görə də Famil müəllim heç bir tələbəni kəsməzdi. Bəzən kimlərsə özlərini tapşırtmaq istəyəndə Famil müəllim deyərdi ki, heç bir tapşırığa ehtiyac yoxdur. Özünüz gəlin məndən xahiş eləyin, qiymətinizi yazacam. Təbii ki, biz o xahişi eləməzdik və Famil müəllim də hamımıza övlad məhəbbəti göstərərdi.

Biz 3-cü kursda oxuyanda rayon qəzetlərində təcrübədə olardıq. Məni də öz rayonumuzdakı "Araz" qəzetində 3 aylıq təcrübəyə göndərmişdilər. Təcrübə rəhbərimiz də Famil Mehdi idi. Mən məktubu qəzetin redaktoru Məcnun Namazəliyevə təqdim elədim. O da çox sevgi ilə məktubu aldı və dedi ki, sabahdan fəaliyyətə başla. Mən də 3 ay yorulmadan müxtəlif janrlı yazılar qələmə aldım. Təcrübəmiz bitəndə bizə redaksiyadan xasiyyətnamə verdilər. Həmin xasiyyətnamənin sözlərini rəhmətlik istedadlı jurnalist Kərəm Hətəmov yazmışdı. Xasiyyətnaməyə möhürü və imzanı isə Məcnun Namazəliyev vurmuşdu. Elə oldu ki, yeni dərs ilinə qayıdan kimi bizim təcrübəmizin hesabatı dinlənildi. Onda Famil Mehdi mənim barəmdə xasiyyətnamədə yazılmış bu fikirləri olduğu kimi yığıncaq iştirakçılarının diqqətinə çatdırdı: "...Jurnalistika fakültəsinin tələbəsi Faiq Hüseynov çox istedadlı bir gəncdir. Biz fakültənin dekanlığına təşəkkür edirik ki, bu cür istedadlı və savadlı, tərbiyəli tələbəni bizim redaksiyada təcrübəyə göndərib..."



Famil müəllim bu fikri hamıya çatdırandan sonra bir daha üzünü mənə tutub dedi ki, çox sağ ol, fakültəmizin adını uca tutaraq gözəl yazılar qələmə almısan. Mən sənin hər bir yazına diqqət yetirdim. Gördüm ki, bütün janrda qələmə aldığın yazılar çox maraqlı, orijinal və yaddaqalandı. Dil və üslubun xüsusilə xoşuma gəlir. Ona görə də mən də təcrübə rəhbəri kimi bir daha sənə öz təşəkkürümü bildirirəm.

Famil Mehdidən bu sözləri eşitmək bir tələbə olaraq mənə çox xoş idi. Onun haqqımda söylədiyi dəyərli fikirlərdən sonra bir qədər də həvəsləndim və respublika mətbuatında çoxlu sayda yazılar qələmə aldım. O vaxt bizim müəllimlər yazılarımızı böyük maraqla izləyirdilər. Oxuduqdan sonra fikirlərini və iradlarını bildirirdilər. Biz də gələcək yazımızda həmin qüsurları aradan qaldırırdıq.

Famil müəllim çox böyük ürək sahibiydi və heç kəsin də paxıllığını çəkməzdi. Əksinə, çalışardı ki, hamıya kömək eləsin. Və Famil müəllim həm də ona çalışardı ki, kimsəsiz və kasıb tələbələr əzazil müəllimlər tərəfindən incidilməsin, sıxılmasın. Bax, onda Famil Mehdi sinəsini qabağa verər, öz haqq səsini ucaldar və tələbəsini müdafiə eləyərdi.

Bir dəfə 5-ci kursda oxuyanda diplom müdafiəsi idi. Mən də müdafiə edərkən bəzi müəllimlər üstümə hücum çəkdi. Hətta eləsi vardı ki, lap əzazillik eləyirdi. Yəni diplom işimdə yüksək qiymət almağıma imkan vermirdi. Bax, o vaxt da Famil müəllim haqlı olduğuma görə, sinəsini qabağa verdi və məni müdafiə elədi. Dedi ki, indi bu tələbənin arxası yoxdu deyə üstünə yeriyəcəksiz? Onun arxası yoxdu, amma istedadı və savadı var. Famil Mehdinin bu sözlərindən sonra çoxları sakitləşdi. Onda Qulu Xəlilov da mənə qahmar çıxdı.

Müəllimə ən obyektiv qiyməti verən tələbədi. Və düşünürəm ki, bizim müəllimlər də elə biz tələbələr tərəfindən əksəriyyəti "5" qiyməti alıb. Çünki onlar həmişə ədalətli olublar, haqlı olublar və hansısa tələbənin nahaq yerə incidilməsinə, sıxılmasına imkan verməyiblər...

Famil Mehdi hamıya yaxşılıq eləyən adam idi. Təsəvvür edin, kimsə yolda onun maşınını digər maşınla əzib. Bunun müqabilində Famil müəllim ona yaxşılıq edib. Çətin gündə həmin adama arxa durub. Amma bir başqası olsaydı, nəinki maşınını əzsə, ayağını tapdalasa belə ondan qisas alardı...

...O gözəl şairin, o gözəl alimin, o gözəl ziyalının çox böyük Allah sevgisi olub. Ürəyində və qəlbində Allah sevgisi olan insanlar həmişə digərlərinə böyük sevgi və məhəbbətlə yanaşıblar və onlara heç vaxt yuxarıdan aşağıya baxmayıblar.

Famil müəllim bəlkə də uzun ömür sürərdi, bu gün də yaşaya bilərdi. Amma o heç vaxt haqsızlığa, ədalətsizliyə dözə bilmirdi. Onu vaxtından tez bu dünyadan aparan həm də Qarabağ dərdi oldu. Famil müəllim Qarabağsız, Ağdamsız yaşaya bilməzdi. Bir dəfə onunla görüşdüm. Gördüm ki, dağ boyda olan Famil Mehdi indi yaman balacalaşıb. Çünki dağ boyda olan Famil Mehdini Qarabağ dərdi, Ağdam dərdi yumağa çevirmişdi. Famil müəllim təpədən-dırnağa, başdan-ayağa vətənpərvər bir ziyalıydı. Famil müəllim elini, obasını, Qarabağın hər daşını, hər otunu, hər bulağını, hər çiçəyini sevən bir insanıydı. Elə Qarabağın o ağır dərdi də götürüb apardı onu Allahın dərgahına. İndi Famil Mehdi Allahın dərgahında Qarabağın, Ağdamın güllərinin, çiçəklərinin, bulaqlarının yanındadı...

O, gözəl şair idi və həmişə də qəlbi vətən eşqi ilə döyünərdi. Vaxtı ilə o, Təbrizin, onun xalçasının həsrətini çəkib. Nə Təbrizi görüb, nə də onun xalçasını. Sonradan "Təbriz xalçası" adlı bir şeir yazıb:

Aha, görüşünə kim gəlib, kim.
Dünyanın, taleyin hökmünə bir bax!
Mən səni Təbrizdə görə bilmədim,
Barı Lissabonda gəl qucaqlaşaq.
Dünya da böyükdür, dərddə böyükdür,
Ey əziz torpağın, əziz xalısı,
Ayrılaq... biz buna öyrəncəliyik
Əlvida, əlvida, Təbriz xalısı...

Famil Mehdi bax, belə bir ürəyin, belə bir qəlbin sahibi olub. Belə bir ürəyin, belə bir qəlbin sahibini isə heç vaxt onu tanıyanlar unuda bilməzlər. Çünki o qəlb, o ürək dupduru olub, pak olub. Pak ürək və pak qəlb sahibi isə zamanından və məkanından asılı olmayaraq, həmişə yaşayır. Famil Mehdi bu gün də, bu an da yaşayır, öz şeirlərində, öz mahnılarında, öz tələbələrinin ürəyində və öz sevənlərinin qəlbində...